

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 133 (23.545)

*15 avqust 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Muxtar respublikada taxıl biçini başa çatmışdır



Muxtar respublikada etibarlı ərzaq təminatının yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm sahələrdən biri olan taxılçılıq kənd təsərrüfatının əsasını təşkil edib əhalinin çörək və un məmulatlarına olan tələbatını ödəməklə yanaşı, heyvandarlığın inkişafında da mühüm rol oynayır.

Son dövrlər geniş vüsət almış meliorasiya və irriqasiya tədbirləri, məhsul istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların və gübrələrin, güzəştli şərtlərlə kreditlərin verilməsi bu sahədə iqtisadi aktivliyi daha da artırmışdır.

Görülmüş tədbirlərin nəticəsi olaraq 2020-ci ilin məhsulu üçün muxtar respublikada 63405 hektar sahədə əkin aparılmışdır ki, bunun da 36879 hektarını və ya 58,2 faizini taxıl sahəsi təşkil edib. 2019-cu illə müqayisədə taxıl əkini sahəsi 3571 hektar artıb.

*Taxıl əkini sahəsi, hektar*




Taxıl əkini sahəsinin 26293 hektarında buğda, 10586 hektarında isə arpa əkilmişdir. Sahələrin 4865 hektarı və yaxud 13,2 faizi Şərur, 11767 hektarı və yaxud 31,9 faizi Babək, 1804 hektarı və yaxud 4,9 faizi Ordubad, 7589 hektarı və yaxud 20,6 faizi Culfa, 5906 hektarı və yaxud 16 faizi Kəngərli, 1563 hektarı və yaxud 4,2 faizi Şahbuz, 2357 hektarı və yaxud 6,4 faizi Sədərək rayonlarının, 1028 hektarı və yaxud 2,8 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

Cari ildə taxıl sahələrindən 115649 ton məhsul tədarük olunmuşdur ki, bu da 2019-cu ilin göstəricisi ilə müqayisədə 12665 ton və yaxud 12,3 faiz çoxdur. Yığılan məhsulun 83824 tonu buğda, 31825 tonu isə arpadır. Məhsuldarlıq orta hesabla hər hektardan 31,4 sentner olmuşdur ki, bu da ötən illə müqayisədə 1,6 faiz çoxdur.

Əldə olunan məhsulun 19185 tonu və ya 16,6 faizi Şərur, 37702 tonu və ya 32,6 faizi Babək, 5135 tonu və ya 4,5 faizi Ordubad, 20001 tonu və ya 17,3 faizi Culfa, 17707 tonu və ya 15,3 faizi Kəngərli, 4314 tonu və ya 3,7 faizi Şahbuz, 8591 tonu və ya 7,4 faizi Sədərək rayonlarının, 3014 tonu və ya 2,6 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

*Şəhər və rayonlar üzrə taxıl yığımının bölgüsü, faizlə*




Tədarük olunan buğdanın bir kiloqramının cari ildə 38, arpanın isə 35 qəpikdən mərkəzləşmiş qaydada satın alınması taxıl əkininə və onun vaxtında itkisiz yığılmasına marağı daha da artırmışdır.

Muxtar respublikada məhsul istehsalçılarının texnika ilə təmin olunması məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 177 ədədi 2020-ci ilin yanvar-iyul aylarında olmaqla, ümumilikdə, 2916 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. Cari ilin yanvar-iyul aylarında 178 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş, 10 ədədi nağd yolla satılmışdır.

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında, keyfiyyətinin yüksəldilməsində və ərzaq təminatının yaxşılaşdırılmasında toxumçuluq xüsusi yer tutur. Muxtar respublikada keyfiyyətli toxum istehsalının yaradılması diqqətdə saxlanılmış, cari ilin ötən dövründə "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti yenidən qurulmuşdur. Cəmiyyətin istifadəsində 90-a yaxın texnika, 2 min hektara yaxın torpaq sahəsi, anbarlar, qarışıq yem istehsalı sahəsi və satış mərkəzi mövcuddur ki, bütün bunlar keyfiyyətli və tələbata uyğun toxum sortlarının istehsalı və satışına, daxili tələbatın ödənilməsinə geniş imkanlar yaratmaqdadır.

Muxtar respublikada kənd təsərrüfatının, o cümlədən taxılçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, məhsuldar toxum sortlarından istifadə, suvarma şəbəkələrinin genişləndirilməsi və əkin sahələrinin şırım üsulu ilə suvarılması bu sahənin inkişafına yeni imkanlar yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində növbəti payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. Tədbirdə çıxış edən nazir Nicat Babayev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə nazirliyə mövsümi qazanxana işçilərinin qabaqcadan təlimatlandırılması, bütün ocaqçıların müvafiq kurslara cəlb olunması, habelə tabelikdə olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin qış mövsümünə hazırlığı ilə bağlı müvafiq tədbirlərin görülməsi, sosial könüllülərlə bağlı layihələrin və hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi barədə bir sıra tapşırıqlar verilib.

Nicat Babayev mövsümə hazırlıq işləri ilə əlaqədar nazirliyin "Tədbirlər Planı"nın təsdiq olunduğunu diqqətə çatdırıb. Bildirib ki, qarşıdakı dövr ərzində, verilmiş tapşırıqların icrasına uyğun olaraq yaradılmış komissiya tərəfindən nazirliyin və onun strukturuna daxil olan təşkilatların inzibati binalarına baxış keçirilməli, inzibati tikililərin payız-qış mövsümünə hazırlığı yoxlanılmalı və aşkar edilən çatışmazlıqlarla bağlı zəruri işlər görülməlidir. Bununla yanaşı, sosial könüllülərin sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən xidmətlərdə aktiv iştirakı təmin edilməli, onlarla birgə yeni layihələr hazırlanmalı, keçirilən tədbirlərin əhatəsi genişləndirilməlidir. Həmçinin əsgərlər üçün yun şərf və corab toxunması məqsədilə sağlamlıq imkanları məhdud qadınlarla müqavilələrin bağlanılmasına başlanılmalı, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ilə birgə qazanxana işçiləri üçün maarifləndirmə tədbirləri də diqqət mərkəzində saxlanılmalıdır. Qarşıdakı dövr ərzində müvafiq vakansiyalar üzrə kadrların təmin edilməsi, peşə təhsilinə malik olmayan, məşğulluq xidməti orqanlarında işaxtaran kimi qeydiyyatda olan şəxslərin vakant yerlərə göndərilməsi məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər peşələri üzrə kursların təşkili, habelə sosial-məişət xidməti göstərilən sağlamlıq imkanları məhdud şəxslərin və tənha ahılların qış mövsümünə uyğun olaraq geyim və digər vasitələrlə təmin olunması üçün zəruri tədbirlər həyata keçirilməlidir.

Nazir vurğulayıb ki, Şahbuz şəhərində yerləşən Ahıllar Evində ehtiyac olan təmir işləri aparılmalı və təminata diqqət artırılmalı, sakinlərin rahat yaşaması üçün hərtərəfli şərait yaradılmalıdır. Sağlamlıq imkanları məhdud insanlara xidmət edən bərpa mərkəzlərində, müvafiq kateqoriyadan olan şəxslərin reabilitasiyası istiqamətində işlər düzgün qurulmalı, zəruri tədbirlər həyata keçirilməlidir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı görüləcək işlərin müzakirəsi aparılıb.

***Naxçıvan Beynəlxalq Hava Limanında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran məsələlərə həsr olunmuş iclası Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli açıb.***

Bildirilib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar hava limanının maddi-texniki bazasının gücləndirilməsi, fəaliyyətinin mövsümə hazırlanması istiqamətində görülən işlər ardıcıl və sistemli xarakter alıb. Mövsümlə əlaqədar aerodromun normal istismarının təmin edilməsi üçün bir sıra təlimata uyğun məqsədyönlü tədbirlər həyata keçirilir. Payız-qış mövsümü ilə əlaqədar uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə uçuş-enmə zolağı, dönmə yolları və dayanacaqlarda nişanlama aparılır. Perronda açıq-örtülü drenaj xətləri yoxlanılır və profilaktik tədbirlər görülür. Aerodromun yan və son təhlükəsizlik zolaqlarında təmizləmə aerovağzal kompleksi və yardımçı binaların qurğularında mövsüm ilə əlaqədar lazımi təmir işləri aparılır.

Diqqətə çatdırılıb ki, uçuş-enmə zolağının sürüşmə əmsalını ölçmək üçün "ATT-2" və "Skidometr" qurğuları laboratoriyada yoxlanılıb, texniki baxış keçirilib, köməkçi yolların və səkilərin qardan təmizlənməsi üçün 4 qartəmizləyən hazır vəziyyətə gətirilib. Qış mövsümündə uçuş-enmə zolağının, perronun qar və buzdan təmizlənməsi üçün lazım olan 20 000 kiloqram donmaya qarşı hazır maye ehtiyatı yaradılıb. Hazırda yanacaq-sürtkü materialları anbarında 2 206 665 litr "TS-1" təyyarə, 137 232 litr dizel, 9485 litr isə "A-92" benzin yanacağı ehtiyatı yaradılıb.

Qeyd olunub ki, payız-qış mövsümü ilə əlaqədar aerovağzal kompleksində, inzibati və yardımçı binaların istilik şəbəkələri, uçuş-enmə zolağının işıqlandırma sistemi və digər texniki avadanlıqlar yoxlanılıb.

Vurğulanıb ki, aviasiya və uçuşların təhlükəsizliyinin təmin olunması, nəzərdə tutulmuş reyslərin müntəzəm olaraq qrafik üzrə yerinə yetirilməsi üçün qış aylarında hava gəmilərinin buzlaşmaya qarşı emal edilməsi üçün 12 970 litr Kilfrost DF Plus, 6662 litr Kilfrost ABC S Plus, 29 000 litr Kilfrost ABC K Plus ehtiyatı yaradılıb.



Xidmətin balansında olan buzlaşmaya qarşı emal mayelərindən götürülən nümunələr GHC-nin laboratoriyasında yoxlanılıb və analiz nəticələri əldə olunub. Personalın buzlaşmaya qarşı emalın təşkilinə hazırlığı üçün işçilər təlimatçılıq kursunda iştirak edib və sertifikat alıblar. Xidmətdə olan digər texnikalara, o cümlədən TUG TMD 250 tipli hava starterinə, Hobart 90 kVa tipli elektrik aqreqatına mövsümi və reqlamentləşdirilmiş texniki qulluq göstərilmişdir. "JOHNSTON SWEEPERS" markalı avtotəmizləyiciyə, "VOLVO", "MAN", 2 ədəd "MERSEDES ACTORS" qartəmizləyicilərinə, "SUPRA" qarpüskürən, "Damman" mayepüskürən avtomobillərə texniki baxış keçirilərək mövsümə hazırlanmış, "MAZ 53 37" və "CATERPİLLAR" markalı ekskavatora texniki qulluq olunaraq saz vəziyyətə gətirilmişdir. Qış aylarında hava gəmilərinin buzlaşmasına qarşı emal üçün nəzərdə tutulmuş "İSUZU" və "GLOBAL" mayepüskürən maşınların reqlament üzrə istismarına dair sürücülərə profilaktik dərslər keçilir. Aerodromda hərəkət edən maşın-mexanizmlərin sürücüləri ilə qartəmizləmə zamanı səmərəliliyin və iş məhsuldarlığının yüksək olması yönündə maarifləndirmə işləri aparılır.

Bildirilib ki, hava limanı ərazisində yanğın təhlükəsizliyi ilə əlaqədar qabaqlayıcı tədbirlər görülüb, maşın və texnikalar mövsümə hazırlanıb. Bütün postlar mövsümlə əlaqədar yoxlanıb, işçilər əməyin təhlükəsizliyi üzrə təlimatlandırılıb. Mövsümlə əlaqədar olaraq işçi heyət yeni qış geyim formaları ilə təmin olunub.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə keçirilən beynəlxalq onlayn konfransda Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi, Azərbaycan Dövlət İdarəçilik Akademiyası, AMEA İqtisadiyyat İnstitutu ilə yanaşı, Türkiyənin Ərzurum Atatürk və Qars Qafqaz universitetlərinin əməkdaşları da iştirak ediblər.***

# “Naxçıvan Muxtar Respublikası: dayanıqlı inkişaf, uğurlar, perspektivlər” mövzusunda beynəlxalq onlayn konfrans keçirilib



Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid açaraq Naxçıvanın Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olduğunu deyib. Bildirib ki, 5 min il bundan əvvəl Naxçıvanda şəhər mədəniyyətinin formalaşması bu yurdda sivilizasiyanın inkişafının ən mühüm göstəricisi hesab olunur. Naxçıvan həm də Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr verən bir diyardır. Azərbaycan türkləri min illər boyu burada ardıcıl həyat sürüb, böyük dövlətçilik ənənələrinin əsasını qoyub. Bölgədə X əsrdə Naxçıvan şahlığı, XII əsrdə Azərbaycan Atabəylər dövləti yaranmış, XVIII-XIX əsrlərdə Naxçıvan xanlığı, XX əsrin əvvəllərində Araz-Türk Respublikası fəaliyyət göstərmişdir.

Qeyd edilib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində respublikamızın siyasi-iqtisadi və sosial həyatında mühüm dəyişikliklər baş vermiş, ölkədə sosial-siyasi sabitlik bərqərar olmuş, dinamik iqtisadi inkişaf dövrü başlanmışdır. Vurğulanıb ki, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanla bağlı düşüncələri, müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının imzaladığı müvafiq fərmanlarla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər əldə edilən nailiyyətləri daha da möhkəmləndirir. Naxçıvanda aparılan yüksək inkişaf, görülən abadlıq və quruculuq işləri məhz dayanıqlı inkişaf konsepsiyasına, aparılan uğurlu siyasətə əsaslanır.

Diqqətə çatdırılıb ki, muxtar respublikada sosial-iqtisadi inkişafın təməlində sosialyönümlülük, hər bir vətəndaşın maddi rifahının artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələrdir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Naxçıvan Muxtar Respublikası dayanıqlı inkişaf yollarında (1995-2020)” mövzusunda məruzə ilə çıxış edərək vurğulayıb ki, muxtar respublikanın inkişafında 1995-2020-ci illərin xüsusi yeri var. Bu illərdə muxtar respublikanın həm iqtisadi, həm də sosial həyatında baş verən dəyişikliklər yüzillik inkişafa bərabərdir. Kənd və şəhərlərimizin abadlaşdırılması, inzibati binaların, sosial obyektlərin tikilməsi, tarix və mədəniyyət abidələrinin bərpası, yolların çəkilməsi, səliqə-sahmanın ən yüksək səviyyədə olması, insanların rifah halının yaxşılaşması diyarımızın bugünkü inkişaf mənzərəsinin təsdiqidir.

Naxçıvan Muxtar Respublikasının 2017 və 2018-ci illərdə bir sıra parametrlər üzrə ölkə üzrə liderliyini qoruyub saxladığını xatırladan akademik qeyd edib ki, ulu öndər Heydər Əliyev yolunun uğurla davam etdirilməsi nəticəsində Naxçıvan tamamilə dəyişilmiş, yenidən qurulmuş, müasir bir diyara çevrilmişdir. Bildirib ki, son 25 ildə muxtar respublikamızda elə bir sahə yoxdur ki, orada dayanıqlı inkişaf təmin edilməmiş olsun. İqtisadi sahədə olduğu kimi, sosial sahədə də çox böyük nailiyyətlər əldə edilib. Muxtar respublikanın dayanıqlı inkişafı təhsil, elm, mədəni-maarif müəssisələri, səhiyyə və digər sahələrdə də özünü göstərir.

Akademik İsmayıl Hacıyev söyləyib ki, ümummilli lider Heydər Əliyev siyasi kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl olaraq həyata keçirilməsi, Ali Məclis Sədrinin gündəlik diqqət və qayğısı ilə muxtar respublikanın dayanıqlı inkişafı təmin edilmişdir.

Onlayn konfransda Ərzurum Atatürk Universitetinin əməkdaşı, iqtisad elmləri doktoru, professor Kerem Karabulutun “Türkiyə-Naxçıvan sosial-iqtisadi əlaqələrinin dəyərləndirilməsi”, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayevin “Naxçıvan Muxtar Respublikasında ali təhsilin inkişafı”, Azərbaycan Dövlət İdarəçilik Akademiyasının professoru, AMEA-nın müxbir üzvü Əli Nuriyevin “Naxçıvan Muxtar Respublikasında iqtisad elminin məhsuldar inkişafı ətrafında düşüncələr”, Qars Qafqaz Universitetinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru Tuncer Yılmazın “Naxçıvan iqtisadiyyatının ümumi vəziyyəti və Türkiyə ilə ticarət əlaqələrinin tədqiqi” mövzularında məruzələri dinlənilmişdir. Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı, iqtisad elmləri doktoru, professor Nazim Əhmədov, AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru Eltun İbrahimov da müxtəlif mövzularda məruzələr etmişlər.

Qeyd edək ki, tədbir çərçivəsində muxtar respublikamızın müasir inkişafı videogörüntülər vasitəsilə iştirakçıların diqqətinə çatdırılmışdır. Konfrans “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı (1991-2020)” və “Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında elm, təhsil və mədəniyyətin inkişafı” adlı bölmələrlə öz işini bu gün davam etdirəcək.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

---

***Ordu quruculuğu inkişaf edən hər bir ölkə üçün davamlı prosesdir. Çünki hərbi sahədə təchizat və təminatın yenilənməyə, heyətin yeni bilik və bacarıqlara ehtiyacı daimi olduğu üçün bu tələbatın ödənilməsi də davamlı xarakter daşıyır. Bu mənada, son günlərin ən çox müzakirə olunan mövzularından biri – Naxçıvanda, həm də ölkəmizin digər regionlarında keçirilən Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə hərbi təlimləri böyük əhəmiyyət kəsb edir.***

# Təlimlər Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür





Qeyd etmək lazımdır ki, böyük Türk dünyasının qapısı sayılan Naxçıvanın milli təhlükəsizliyi təkcə Azərbaycanın deyil, ümumilikdə, regionun təhlükəsizliyi üçün xüsusi əhəmiyyət daşıyır. İki əsrə yaxındır, mənfur ermənilərin əsassız ərazi iddiaları ilə üz-üzə qalan, Azərbaycanın qədim torpağı Zəngəzurun Ermənistana verilməsi ilə ana Vətəndən ayrı düşmüş, əslində, elə o zamandan da blokada vəziyyətinə salınmış Naxçıvan həmişə ermənilərə gözdağı olmuşdur. Zaman-zaman açıq və ya üstüörtülü şəkildə öz iddialarından əl çəkməyən ermənilər bu qədim Azərbaycan diyarını birinci fürsətdə işğal etməyi planlaşdırmışlar. Bu baxımdan muxtariyyət statusu beynəlxalq müqavilələrlə təsdiqlənən Naxçıvanın həm hərbi, həm də milli təhlükəsizliyinin qorunması (milli təhlükəsizlik hərbi təhlükəsizlikdən daha geniş anlayışdır) müstəqilliyimizin bərpasından sonrakı dövrdə dövlətimizin xüsusi diqqət ayırdığı ən mühüm istiqamətlərdən olmuşdur. Daha da dəqiqləşdirsək, xalqımızın ümummilli lideri Heydər Əliyev hələ 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi zaman, həm də Azərbaycanın rəhbəri kimi sonrakı dövrdə muxtar respublikanın hərtərəfli inkişafı, müdafiəsi, xarici əlaqələrin genişləndirilməsi sahəsində mühüm işlər görərək Naxçıvan məsələsini daim ön planda saxlamışdır. Ulu öndərin yolunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən dövrdə muxtar respublikanın hərtərəfli inkişafına böyük dəstəyi həm də Naxçıvanın müdafiə təhlükəsizliyinin etibarlı təmin olunmasına öz töhfəsini verib. Belə ki, ölkə başçısının Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə bağlı qərarı milli dövlətçilik konsepsiyamızda Naxçıvanın necə mühüm bir strateji yerə sahib olmasını göstərir.

Xatırladaq ki, Əlahiddə Ümumqoşun Ordu yarandığı dövrdən bu günədək ordu quruculuğu prosesində hər bir mərhələni addım-addım keçib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının yüksək səviyyədə təminatı üçün lazımi addımlar atılıb, buradakı bütün qoşun növlərinin döyüş arsenalı müasir hərb sənayesinin texniki vasitələri ilə təkmilləşdirilib, hərbi obyektlərdə kompleks şəkildə tikinti-quruculuq tədbirləri aparılıb. Hazırda da bu işlər davam etdirilir. Elə ötən ayın sonlarında muxtar respublikanın hərbi infrastrukturunun yenilənməsi işlərinin daha keyfiyyətli aparılması məqsədilə “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş”ə əsasən qardaş ölkədən Naxçıvan Muxtar Respublikasına xüsusi tikinti-inşaat texnikaları gətirilərək Əlahiddə Ümumqoşun Orduya təhvil verilib. Müasir dizayn və texnologiyalı bu maşınlar orduda təmir-tikinti işlərinin və yol infrastrukturunun yenilənməsinin daha keyfiyyətlə aparılmasına imkan verəcək. Bundan əlavə, hamımıza məlumdur ki, hər iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən son illərdə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu ilə Türkiyə Silahlı Qüvvələrinin birgə taktiki təlimləri keçirilib. Bu təlimlər hər iki tərəfin müvafiq bilik və təcrübələrə yiyələnməsinə, praktik vərdişləri bölüşməsinə şərait yaradıb. Müvafiq plana uyğun olaraq keçirilən son təlimlər isə miqyasına görə əvvəlkilərdən xeyli fərqlənir. Belə ki, budəfəki təlimlərə hər iki ölkənin ordusunun şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilib. Muxtar respublikada bu təlimlərə hazırlıq çərçivəsində əvvəlcə Araz çayı üzərindəki “Ümid” körpüsündə iki qardaş ölkənin Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib, sonra isə Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti və hərbi texnikaları muxtar respublika ərazisinə daxil olub. Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində yerləşən türk hərbçiləri sonrakı günlərdə ordumuzun şəxsi heyəti ilə müxtəlif istiqamətlər üzrə təlimlərdə iştirak edirlər.

Təbii ki, əvvəlki illərdə olduğu kimi, bu dəfə də Naxçıvanda bu cür böyük bir təlimin keçirilməsi Ermənistanı yenidən qorxuya salıb. Çünki təlimdən əvvəl məlum Tovuz hadisələri Azərbaycan Ordusuna ermənilərə gücünü göstərməyə bir daha imkan verdi. Azərbaycanın strateji infrastruktur xətlərini dağıtmaq istəyən düşmənə ordumuz tərəfindən elə bir cavab verildi ki, qısa müddətdə düşmənin yüzə yaxın canlı qüvvəsi, müxtəlif zirehli texnikaları, həmçinin mühüm komanda məntəqələri məhv edildi. Həmin vaxt Naxçıvan istiqamətində də təxribata əl atmaq istəyən ermənilər Əlahiddə Ümumqoşun Ordudan cavablarını layiqincə aldılar. Bu gün ermənilər Naxçıvanda, eləcə də ölkəmizin digər regionlarında Türkiyə Silahlı Qüvvələri ilə keçirilən təlimləri təlaş və əndişə ilə izləməyə məcburdurlar. Əslində, bu narahatlıq üçün səbəblər də az deyil. Məsələn, hər şeydən əvvəl, Türkiyə ordusunun tərkibində yalnız quru qoşunları deyil, aviasiya, artilleriya və digər qoşun növlərinin də olduğu böyük bir qüvvə ilə Azərbaycana gəlməsi qardaş ölkənin bu tədbirə çox ciddi yanaşdığını göstərir. Digər tərəfdən budəfəki təlim miqyasına və gün sayına görə əvvəlkilərdən fərqlənir. Həm də təlimlərin keçirildiyi ərazilər bu dəfə miqyasına görə daha böyükdür. Bütün bunlarla yanaşı, məlum Tovuz hadisələrindən sonraya təsadüf edən təlimlər ərəfəsində türkiyəli rəsmilərin bütün sahələrdə Azərbaycanın yanında olmaları haqqında bəyanatları da səbəbsiz deyil.

Bəli, Türkiyə-Azərbaycan təlimləri son günlər bir çox dünya ölkələrinin mətbuatında ən çox müzakirə olunan, haqqında danışılan mövzulardandır. Böyük ruh yüksəkliyi ilə keçirilən təlimlər Azərbaycan və Türkiyə ordularının gücünü bir daha nümayiş etdirir.

Avqustun 13-də Türkiyə-Azərbaycan quru qoşunları və hərbi hava qüvvələrinin birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirildi. Azərbaycan və Türkiyə Müdafiə nazirliklərinin rəhbərliyi və qoşun növləri komandanları təlimlərin birinci mərhələsinin son epizodunu izlədilər. Həmçinin həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Söhbət zamanı dövlət başçısı bunları dedi: ***“Bu gün Türkiyə-Azərbaycan birgə hərbi təlimlərinin son günüdür. Hərbi təlimlərin birinci mərhələsi başa çatır. Bu, çox əlamətdar hadisədir, bizim birliyimizi, qardaşlığımızı bir daha göstərir. Bir neçə gün ərzində ölkəmizin müxtəlif şəhərlərində təlimlər keçirilir. Həm hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var. Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlimlər keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür”.***

*Təbii ki, hər bir təlim öyrətməklə bərabər, müəyyən hərbi-siyasi məqsəd də daşıyır. Bu təlim Azərbaycan-Türkiyə qardaşlığını bir daha ortaya qoymaqla yanaşı, ölkəmizin, həmçinin Naxçıvanın təhlükəsizliyinin etibarlı əllərdə olduğunu da göstərir.*

**Səbuhi HƏSƏNOV**

Müasirləşən kəndlərimiz

# Dağlar qoynunda yerləşən Kükü

## *Dağların hər dərəsini, zirvəsini təbiət, sanki elə yaradıb ki, bura doğma övlad üçün möhtəşəm qala, düşmən üçün isə gözdağı olsun*

***Cənnətməkanım, Naxçıvanım mənim! Nə xoş bir insana ki məmləkətinin adı ilə, orada qurulub-yaradılanlarla qürur duya... Bəli, bir vətəndaş olaraq fəxarət içərisindəyəm. Ona görə ki, heç bir fərq qoyulmadan muxtar respublikamızın bütün şəhər və kənd yaşayış məntəqələrində görülən genişmiqyaslı quruculuq işləri qədim məmləkətimizin simasını əsaslı surətdə dəyişib, sözün həqiqi mənasında, cənnətməkana çevirib. Belə yaşayış məntəqələrindən biri də Şahbuz rayonunun Kükü kəndidir. Həftəsonu bu kəndə getməyi planlaşdırmışdıq. Paytaxt şəhərimiz Naxçıvandan Küküyə gedərkən istər rayon mərkəzi olan Şahbuz şəhərində, istərsə də yolboyu keçdiyimiz Ayrınc, Qızıl Qışlaq kəndlərində əsrarəngiz gözəlliklərin yaradıldığını gördük. Budur, artıq Kükülüdəyik... Axan gur çayın səsini dinləyirik. Hər iki tərəfdə buludlarla sövdələşən dağ zirvələri, güneyləri bol-bəhərli yaydan xəbər verən yaşıl yamacları və üzüaşağı tələsən Kükü çayını heyranlıqla seyr edirik. Dağların hər dərəsini, zirvəsini təbiət, sanki elə yaradıb ki, bura doğma övlad üçün möhtəşəm qala, düşmən üçün isə gözdağı olsun.***



Kükü Şahbuz rayonunun ən böyük yaşayış məskənlərindən biridir. Kənd dəniz səviyyəsindən, təxminən, 1900-2100 metr yüksəklikdə, Dərələyəz silsiləsinin cənub yamacında, Naxçıvançayın ən böyük qollarından olan Küküçay boyunca yerləşir. Naxçıvan şəhərindən təqribən 50 kilometrlik məsafədə olan kəndə 45 dəqiqə ərzində rahat gəlib çatmaq olur. Muxtar respublikanın kənd yaşayış məntəqələrində aparılan quruculuq işlərinin ən mühüm cəhətlərindən biri də bu ünvanlara gedən yolların abadlaşdırılmasıdır. Müasirləşdirilən kənd yolları tikinti-quruculuq tədbirləri sırasında davamlı xarakter alıb. Abadlaşan Kükü kəndinin yolunda gördüklərimiz qəlbimizi dağa döndərdi. Elə yol kənarında Kükü kənd sakini Ağabba Babayevlə söhbətləşirik. Deyir ki, əvvəlcə yollarımız çox pis vəziyyətdə idi. Bu da rayona gedib-gəlməyimizdə çətinlik yaradırdı. Həm də kələ-kötür yolda maşınlarımız nasaz vəziyyətə düşürdü. Artıq yollarımız abadlaşıb, kənd sakinləri bu gün rahatlıqla mənzilbaşına çatırlar. Kənd sakinləri adından qurub-yaradan əllər var olsun deyirəm!



Bu kənddə qurulub-yaradılanlar Kükünü müasir yaşayış məntəqələrindən birinə çevirib. Quruculuq tədbirlərindən biri kənd məktəbinin yeni binasıdır. Məktəbin müəllimi Natiq Hüseynov deyir ki, təhsil ocağı əvvəllər köhnə və şəraiti olmayan binada fəaliyyət göstərirdi. Müasir standartlara cavab verən məktəbdə çalışmaq, şagirdlərə elmin sirlərini öyrətmək ən böyük arzumuz idi. Kollektivimizin arzusu artıq reallığa çevrilib. Geniş və elektron lövhəli siniflərdə, müxtəlif fənn laboratoriyalarında, idman zalında hər cür şərait yaradılaraq müəllim və şagirdlərin istifadəsinə verilib. Kükü kənd məktəbində uzun illər bilikli gənclər yetişdirilib. Təhsil ocağının məzunları arasından indiyədək akademik, elmlər doktoru, həkimlər, gözəl qələm sahibləri və digər sahələrdə çalışan insanlar çıxıb. Həmin ziyalıların adı həmişə hörmətlə çəkilir, şagirdlərə nümunə olaraq göstərilir. Biz təhsil işçiləri isə dövlətimizin yaratdığı hərtərəfli şəraitdən bəhrələnərək gələcəyimizin təhsilli gənclərini, layiqli vətəndaşlarını yetişdirməliyik. Yadıma Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi sözlər düşür: ***“Müasir məktəb binaları ona görə tikilir ki, gənclərimiz təhsilli və vətənpərvər böyüsünlər. Eyni zamanda müəllim əməyinə yüksək qiymət verilir ki, onlar ölkəmiz üçün peşə sahibi olan gənclər yetişdirsinlər”.***

Kükündə baş çəkdiyim digər bir sosial obyekt isə sakinlərin sağlamlığına xidmət edən həkim ambulatoriyası oldu. Ambulatoriyanın həkimi Aydın Tarışov deyir ki, əvvəllər bu kənddə köhnə feldşer-mama məntəqəsi fəaliyyət göstərib. O zaman sakinlər sağlamlıqlarının qorunması baxımından çox əziyyət çəkirdilər. 2015-ci ildə həkim ambulatoriyasının binası yenidən qurularaq Kükü sakinlərinin istifadəsinə verildi. Ambulatoriyada aptekin fəaliyyətə başlaması sakinlərin uzaq məsafə qət etmədən lazımi dərman vasitələrini əldə etmələrinə imkan verir. Burada uşaqların vaxtlı-vaxtında peyvənd olunması üçün hərtərəfli şərait yaradılıb. Biz tibb işçiləri çalışırıq ki, yaradılan belə gözəl şəraitdən səmərəli istifadə edib insanların sağlamlığı keşiyində daha qətiyyətlə dayanaq.

Kükü bağlar məskənidir desək, heç də yanılmarıq. Kükülülərin əsas məşğuliyyəti meyvəçilikdir. Yerli şəraitə uyğunlaşaraq özünəməxsus mineral tərkibi ilə seçilən müxtəlif alma sortları, armud, cəviz, almaxara, gilas, gilənar dad və tamı ilə tanınır.

Kükü kənd sakini Əvəz Rzayev deyir ki, bu yaşayış məntəqəsinə xüsusi gözəllik verən sahəsi ilbəil artırılan meyvə bağlarıdır. Bu il də bağlarda bol məhsul yetişdirilib. Bağlarımızın gözəli Qızıl Qışlaq almasıdır. Söhbət əsnasında mənim üçün çoxdan maraqlı olan bir sualı da müsahibimə verirəm: – Bəs Kükü almasının özəlliyi nədir? Öyrənirəm ki, kəndin əlverişli iqlim şəraiti, təbii bitki örtüyü və təmiz havaya malik olması... Elə söhbətin bu məqamında belə bir şeir yadıma düşür:

*Calax vur öz əlinlə,*
*Bağ bəslə düz əlinlə.*
*Ye Kükü almasından,*
*Həm də ən gözəlindən.*
*Şirini, turşməzəsi,*
*Cana qüvvət beləsi.*
*Dadından doymaq olmaz –*
*Məlhəmdir bir dənəsi.*



Belə bir deyim var ki, hər kim gündə bir alma yesə, o, xəstəlikdən uzaq olar. Bəs Kükü almasını hər gün qida rasionumuza əlavə etsək...

Digər bir kənd sakini Məstan Nəbiyeva ilə etdiyim söhbətdən öyrənirəm ki, bağında almanın 25 növünü yetişdirir. Bağda “Palmet”, Belflor”, “Qızıləhmədi”, “Şafran”, “Meyxoş”, “Banan”, “Toz” və “Konfet” alma sortları üstünlük təşkil edir. Bu almaların yetişmə vaxtı da fərqlidir. Onların bir qismi yay, (iyul, avqust) və bir qismi payız (sentyabr, oktyabr) ayları yetişir. Hər il bağından tonlarla məhsul əldə edən Məstan Nəbiyeva həmin məhsullardan təbii halda istifadə etməklə yanaşı, həm də mürəbbə, kompot, cem, sirkə, qax kimi nemətlər hazırlayır. Təbii ki, alma və ondan hazırlanan bu nemətlər insan orqanizminə çox faydalıdır. Burada bir haşiyə də çıxım ki, Naxçıvan şəhərində alma sirkəsi istehsal edən müəssisənin də əsas xammal bazası Kükündəki alma bağlarıdır.

Kənd sakinləri arıçılıq, heyvandarlıq, əkinçilik, maldarlıqla da məşğul olurlar. Bu sahələrin inkişafı üçün kənd adamlarına güzəştli şərtlərlə kreditlər verilir. Kənd sakinlərinin hansı ilə həmsöhbət oluramsa, razılıq edir, deyir ki, övladlarımız hərtərəfli şəraitlə təmin olunmuş məktəbdə təhsil alır, sosial qayğılarımız aradan qaldırılıb. Kəndin əkinəyararlı sahələri boldur, bu isə sakinlərin məşğulluğunun təmin olunmasına imkan verib.

Keçdiyimiz məhəllələrin birində təndir çörəyinin ətri aləmi bürüdüyünə görə fürsətdən istifadə həmin evin həyətindəki təndirbaşına qonaq oldum. Öyrənirəm ki, kənd qadınları artıq qış tədarükünə başlayıblar. Kənd sakini Püstə xanım bildirir ki, digər bölgələrə nisbətən bizim kənddə havalar tez soyuyur. Qış süfrələrimizin bəzəyi olan yarmanın başqa bir yeri var. Çünki yarma soyuq havalarda insana istilik gətirir. Məhz buna görə də tədbirimizi əvvəlcədən görürük. Yarmamızı çəkir, əriştəmizi kəsir, təndirdə tayla çörək bişirib hazırlıqlı oluruq.

Kükü kəndi gözəl havası, təbiət mənzərəsi, dadlı meyvələri ilə yanaşı, həm də zəngin turizm potensialına da malikdir. Çətin ki, dünyanın başqa bir yerində buradakı kimi sərt sıldırım qayaları, yamyaşıl çəmənləri, yabanı halda bitən yüzə yaxın dərman bitkisini, qorunaraq sayı artırılan gözəl fauna növlərini, Salvartının, Haçadağın ta zirvəsinədək aydın görünən landşaft mənzərələrini eyni anda görə biləsən. Buraya üz tutan turistlərin sayı da ildən-ilə artır ki, bunun da səbəbi gözəlləşən bu yaşayış məntəqəsindən alınan təəssüratlardır. Yay günləri uzun olsa da, Kükü və eləcə də diyarımızın belə dağlıq kəndlərinə gəlmiş qonaqlar üçün zaman çox sürətlə keçir. Sözsüz ki, yandırıcı günəşin olmadığı maraqlı kənd həyatı doğma torpağa möhkəm bağlı insanlar üçün sübh saatlarından başlasa da, axşamın necə düşdüyünü özləri də bilmirlər.



*Bir sözlə, kənddə olduğum müddətdə yaradılan gözəlliklər qarşısında heyran qaldım. Bu gün öz inkişaf tempi ilə nümunə gücündə olan muxtar respublikada müasirləşən yaşayış məntəqələrinin sayı artır, belə kəndlərin xəritəsi genişlənir. İnsanlarımız indiki Naxçıvanda yaşamağın qüruru ilə öz doğma yurd yerinin bu gününün qədrini bilir, qurulub-yaradılanların qorunmasını, sabaha ərməğan edilməsini özlərinin vətəndaşlıq borcu sayırlar.*

**Nuray ƏSGƏROVA**

# Yarimilin yekunları müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi Əli Hüseynəliyev açaraq məruzə edib.***

Bildirilib ki, şəhərdaxili nəqliyyatda istifadə edilməsi üçün Çin Xalq Respublikasının istehsalı olan 6 ədəd “King-Long” markalı yeni avtobus və onlara aid ehtiyat hissələri alınaraq gətirilib, iyunun 22-də avtobusların təqdimatı keçirilib. 2019-cu ilin yanvar ayından etibarən Naxçıvan şəhərinin Xətai və 21-ci məhəllə sakinlərinin ictimai nəqliyyata olan tələbatını asanlaşdırmaq məqsədilə 9 nömrəli marşrut fəaliyyətə başlayıb, iyun ayının 1-dən etibarən isə şəhərdaxili nəqliyyatda 10 nömrəli marşrut xətti istifadəyə verilib. Bu da əhalinin yeni salınmış Sahil Parkına rahat gediş-gəlişini təmin etmək üçün xüsusi əhəmiyyət daşıyır.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Babək şəhər əhalisinin mənzilbaşına rahat və təhlükəsiz çatdırılmasını təmin etmək məqsədilə şəhərdaxili nəqliyyatda fəaliyyət göstərən 6 nömrəli marşrut xətti Babək şəhərinədək uzadılıb.

Diqqətə çatdırılıb ki, hazırda muxtar respublikada, ümumilikdə, 496 taksi sərnişindaşıma xidməti göstərir. Bununla yanaşı, fəaliyyətdə olan 135 marşrut xəttində 313 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin olunub. Həmçinin Ağbulaq İstirahət Mərkəzinə və Duzdağ Fizioterapiya Mərkəzinə salınmış marşrutlar öz işini davam etdirib, Uzunoba gölündəki çimərliyə iyunun 15-dən başlayaraq marşrut işləməsi təmin olunub. Hazırda nəqliyyat idarəsinin balansında sərnişindaşıma ilə məşğul olan 74 avtobus və 23 taksi minik avtomobili vardır ki, onlar da muxtar respublika sakinlərinə nümunəvi sərnişindaşıma xidməti göstərirlər.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Səbuhi HƏSƏNOV**

# Qəbul imtahanları keçirilib

*Dövlət İmtahan Mərkəzi avqustun 14-də II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul, həmçinin I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin müsabiqəsində buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün isə əlavə xarici dil imtahanları, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan (Azərbaycan və ya rus dili) keçirib.*

Respublikanın 19 şəhər və rayonunda keçirilən imtahanların təşkil edilməsi üçün, ümumilikdə, 80 imtahan binası, 1427 imtahan zalı, 80 ümumi imtahan rəhbəri, 243 imtahan rəhbəri, 1869 nəzarətçi-müəllim, 160 buraxılış rejimi əməkdaşı, 80 bina nümayəndəsi ayrılıb. İmtahan bütün binalarda saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

Naxçıvan Muxtar Respublikasında 8 binada, ümumilikdə, 1870 abituriyent imtahan verib. Bunun üçün 159 zal ayrılıb, 160 nəzarətçi, 24 imtahan rəhbəri cəlb edilib. Bütün binalarda təlimata uyğun şəkildə keçirilən imtahanlarda iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Şəhərimiz evimizdir

*NAXÇIVAN... Adını eşidincə radionun, televizorun səsini daha da yüksəldirsən, sosial şəbəkələrdə zaman keçirərkən haqqında bir mənbəyə rast gəldikdə hər işini bir kənara atıb səhifəni diqqətlə oxuyursan, avtobusda gedərkən onunla bağlı bir söhbəti eşidib bütün fikrini oğrun-oğrun bu dialoqa yönəldirsən, şəhərdə gəzişərkən boş ərazilərdə yeni layihələrin inşasını görüb qürurlanırsan, küçələrində rahat-rahat yeriyərkən xoşbəxtlik duyğuları və xoş təbəssüm yaranır simanda...*

Budur, yenə şəhərimin gəzintisinə çıxmışam. Qulağımda səslənən yenə də o musiqi hisslərimə hakim kəsilir. Nə gözəl deyib nəğməkar şairimiz İslam Səfərli:

*Mahnıdır yelkənim*
*Əzəldən mənim.*
*Gəl sevək Vətənim*
*Azərbaycanı...*

Axı necə də sevməyəsən bu məmləkəti? Tarixin özü qədər qədim, sabahın özü qədər müasirdir bu diyar... Gəzdikcə hər guşəsində, hər küçəsində, hər döngəsində bir tarixin izini, bir yeniliyin üzünü görürsən. Anamız Möminə xatının şərəfinə ucaldılmış möhtəşəm türbəyə bir baxın! Necə öyünməyəsən axı qadın adının ən yüksək təcəssümü ilə. Şəhərim min illərdir, bu şərəfi qoynunda ucaldıb yaşadır. O yaşadıqca, onu yaşatdıqca biz də öyünür, qürur duyuruq.

Addım-addım gəzdikcə Zaviyə, Şahab, Pirqəmiş, Əlixan, Sarvanlar, Gömayıl, Xoşulu, Atabəylər, Qala məhəllələrini, elə tarixin özündə hiss edirəm özümü... Tarixi kitablarda adına rast gəldiyim bu küçələr neçə yüzillikləri yaşadır hər tinində, dalanında... Budur, Şahab məhəlləsində əzəmətlə ucalan Əcəmi sənətinin gözəl nümunəsi olan Yusif Küseyir oğlu türbəsinin yaxınlığındayam. Burada ayaq saxlayır, seyr edirəm xalqımızın qədim tarixindən soraq verən türbəni, bu vüqarı daha içdən, daha ürəkdən yaşayıram...







Naxçıvan xanlarının iqamətgahı olan Xan Sarayının əzəmətli görkəmi fonunda dəqiqələrlə dayanıb sakit-sakit axan Xan Arazın mənzərəsini seyr etmisinizmi heç? Tamam fərqli bir duyğulara qərq edir bu mənzərə insanı. Yüz illərdir, Naxçıvanla birgə addımlayan Arazım... Axmağı lal, görkəmi Xan Arazım...

Naxçıvanqala... Yurdumun daha bir qədim siması, məğrurluq ünvanı. Yüz illərin yadigarı qalın qala divarları üzərində dəfələrlə dövrə vurub şəhərimi bir də bu yüksəklikdən seyr etmək bir başqa duyğudur. Müasir binalar yaşıl ağacların fonunda necə də xoşbəxt görünürlər? O binalarda yaşayan, işləyən minlərlə eloğlumun bugünkü xoşbəxt həyatının bir nümunəsi də bu deyilmi?..

Gecələr rəngarəng işıqların bərq vurduğu şəhərimdə təbiət də şair ruhlu olur, sanki. Elə işıqların düzülüşü də bir şeir bəndinə bənzəmirmi? Fənərlər misra olur, ağaclar bir qafiyə. İnsan isə, sanki bu əsrarəngiz gözəllik qarşısında öz şair ruhunu təbiətə təslim edir. Yürüdükcə gecələrə doğru hüzur verən bir sakitlik, bir xoşbəxtlik duyğusu ruhumuzu sarır. Ürəyimizə hökm edən duyğular, beynimizə hakim olan hisslər gecələrin ecazkarlığına təslim olur. Gecə görüntüsünü əks etdirən bir foto canlanır gözlərim önündə. Rəngbərəng çilçıraqlara qoşulub həmahəng təşkil edən avtomobil işıqları, sanki bir-biri ilə parlaqlıq yarışına girib. Qala divarlarından enib geniş meydanı gəzirəm... Əsrlər öncə müharibələrə sinə gərib doğma sakinlərinə qucaq açan bu tarixi yeri necə sevməyəsən axı?!

Daşına, torpağına vurğun olduğum bu qədim diyar bu gün çox xoşbəxtdir. Çünki yurddaşları onun nazını çəkir, qayğısına qalır, sevgi ilə oxşayır hər qarışını... Tarixdən yadigar qalan uçuq-sökük divarları yenidən bərpa olunan, əzəmətinə qovuşan şəhərim isə gündən-günə, fərəhlənir, qürurlanır, fərəhləndikcə daha da gözəlləşir, sevgi ilə qucaq açır onu sevənlərə... Bu gün diyarım o qədər xoşbəxtdir ki, bu xoş növrağını bütün dünyaya bəyan edir. Hər il neçə-neçə festivallara, beynəlxalq tədbirlərə qucaq açaraq minlərlə turistə sevdirir özünü. Qalanın küncləridəki bürclər də onun fotolara həkk olunan gözəl guşələridir. Axı bu bürclərdə qədim sənət nümunələrimiz yaşadılıb.

Bürclərdən birinin yanında bir keçid də var. O keçid bizi 5 min il əvvələ aparır... Başəriyyətin beşiyi ünvanına... Babamız Nuhun türbəsi qədim Naxçıvanımın əbədi daş pasportudur. Bəli, əbədi... Bir neçə il bundan öncə, sadəcə, adını eşitdiyimiz, bir də kiçicik qalıqlarına şahidlik etdiyimiz türbə budur, yenidən qarşımızda ucalır. O ucaldıqca, biz də ucalırıq. O ucaldıqca sübut edir ki, biz varıq, minillik tariximizə sahib çıxdıq. Nə qədər ki biz varıq, o da var olacaq. Əbədilik...

Şəhərimin hər tərəfi bizə ömürlük xoşbəxtlik, qürur bəxş edir. 20-30 il öncəki mənzərələr hara, qədimliyi ilə müasirliyin vəhdət daşıdığı ecazkar, gözoxşayan şəhərim hara... Düzdür, o dövrün də şəhəri bizimki idi. Toz-torpaq altında qalmış şəhərimin küçələri, ağacları qırılıb çılpaq qalmış çölləri, səliqəsiz yolları, tarixə düşmək təhlükəsi ilə üzləşmiş tarixi abidələri... Amma zaman sübut etdi ki, yurduna sahib çıxmaq, sevmək amalı qarşısında blokada məngənəsi belə, tab gətirə bilməz. Ulu öndərimizdən bizə miras qalan əsl vətənpərvərlik, yurd sevgisi bu gün, sözün əsl mənasında, Naxçıvanın hüsnünü bəzəyir.

Bir də gəlin Bayraq Meydanı zirvəsindən seyr edin sevimli şəhərimi. Şəhərimin ən yüksək guşəsində qürurla dalğalanan bu bayraq naxçıvanlılara ikiqat qürur bəxş edir. Dövlət müstəqilliyimizin əbədi təntənəsi olan bayrağımız ilk dəfə ulu Naxçıvanımda ulu öndərim tərəfindən yüksəldildi... Elə bu qürurla da meydanın dörd bir ətrafını gəzib şəhərimi bir daha seyr edirəm. Hər tərəfi yaşıllıq və bu yaşıllıqdan əzəmətlə boylanan tarixi abidələrimiz, onları gözəl çalarlarla təqib edən müasir binalar, tər-təmiz parklar, abad küçələr, işıqlı yollar... Bütün bunlar Vətən, yurd sevgisinin mücəssəməsidir. Bu gözəlliyi yaradan və yaşadan biz özümüzük.

*Bəlkə də, Naxçıvanı dünyada yeganə edən budur: biz təkcə qurub-yaratmırıq. Onları qorumaqla həm də yaşadırıq. Yaşadırıq ki, biz də yaşayaq. Çünki biz diyarımızı canımızdan çox sevirik və bu sevgini hər zaman hər kəsə tükənməz şövqlə bəyan edəcəyik...*

**✍ Gülcamal TAHİROVA**







*Estafet*

## Sosial könüllülük bir dəyərdir

*Ölkəmizin, eləcə də muxtar respublikamızın ictimai həyatında gənclərin xüsusi rolu vardır. Müasir günümüzdə onlar icra olunan bir sıra könüllülük proqramlarına qoşularaq öz ictimai fəaliyyətlərini təmin edirlər. Hər şeydən öncə könüllülük hər hansı bir maddi və mənəvi qarşılıq gözləmədən həyata keçirilən əməkdir. Artıq ölkəmizdə, həmçinin muxtar respublikamızda bir neçə könüllülük proqramı yaradılıb. Bu səbəbdən ölkə Prezidentinin Sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi heç də təsadüfi deyil.*

Günümüzdə aktual məsələlərdən biri də xüsusi qayğıya ehtiyacı olan şəxslərlə münasibət və onlara yardım təşkil etməkdədir. Gənclərdə olan mərhəmət və qayğı hissi onların cəmiyyətimizdə yaşayan xüsusi qayğıya ehtiyacı olan insanlar naminə bir araya toplanmalarına səbəb olub. Bu isə, öz növbəsində, həmin kateqoriyaya aid insanların cəmiyyətimizə inteqrasiya olunmasına zəmin yaradır. Həmçinin fəal gənclərin icra etdikləri layihələr çərçivəsində məhdud fiziki imkanlı gənclərin əl işlərinin satışı və tanıdılması kimi tədbirlər də həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə yaradılmış "Sosial könüllülük" proqramı buna ən ideal misal ola bilər. Artıq bu sosial toplumun 50-dən çox gənc iştirakçısı vardır və bu gənclər mütəmadi olaraq məhdud fiziki imkanlı şəxslərlə, eləcə də tənha ahıllarla görüşüb onlara mənəvi dəstək göstərirlər. Eyni zamanda xüsusi günlərdə və bayram ərəfələrində sosial könüllülər həmin kateqoriyadan olan insanların yanında olmaqla, öz gənclik öhdəliklərini yerinə yetirirlər.



Sosial könüllülük gənclər üçün şərəfli bir işdir. 1 may 2019-cu ildə fəaliyyətə başlayan ilk sosial könüllülər 1 oktyabr 2019-cu ildə müddətlərinin başa çatmasına baxmayaraq, fəaliyyətlərini bu günədək davam etdirirlər. Öz məramlarının layiqincə yerinə yetirilməsində sosial könüllüyə seçilmiş gənclərin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun təşkil etdiyi "Sosial Könüllülük Akademiyası"nda 4 həftəlik təlimlərdə həssas qruplarla necə davranmalı və ünsiyyətin necə qurulması yollarını mənimsəmələri başlıca rol oynayır.

Bütün bu göstəricilərə əsaslanaraq demək olar ki, "Sosial könüllülük" layihəsi könüllü gəncləri cəmiyyətimizin əsas aparıcı qüvvələrindən birinə çevirməklə yanaşı, gələcəkdə bu sahədə daha peşəkar gənclərin yetişməsinə də öz töhfəsini verəcəkdir.

**Məhərrəm HƏSƏNOV**
***"Naxçıvan" Universitetinin III kurs tələbəsi, sosial könüllü***

***İtmişdir***

Şəkərəliyev Hikmət Ağabala oğlunun adına olan 080008422 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 598